# Ümummilli Liderin 100 illik yubileyi ilə əlaqədar ağacəkmə aksiyaları keçirilib



Müstəqil Azərbaycanın memarı və qurucusu Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi çərçivəsində Xarici İşlər Nazirliyi (XİN) tərəfindən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə Bakının Müşfiqabad qəsəbəsində "Heydər Əliyev 100 - Yaşıl Gələcək" adlı ağacəkmə aksiyası təşkil olunub.

XİN-in Mətbuat xidməti idarəsindən bildirilib ki, tədbirin keçirilməsində əsas məqsəd ölkədə ekologiyanın qorunması və ətraf mühitin sağlamlaşdırılmasına hər zaman böyük əhəmiyyət vermiş Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini yad etmək, Ümummilli Liderin təbiətə, yaşıllıqlara qayğı ənənələrini davam etdirməkdən ibarət olub. Tədbir zamanı ərazidə Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun 500 Eldar şamı və zeytun ağacı əkilib.

Qeyd edək ki, tədbirdə Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, hər iki nazirliyin rəhbər şəxsləri və əməkdaşları, ölkəmizdə akkreditə olunmuş xarici diplomatik nümayəndəliklərin və beynəlxalq təşkilatların rəhbərləri, eləcə də diplomatiya könüllüləri, ekokönüllülər, habelə media nümayəndələri iştirak ediblər.

❖ ❖ ❖




Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi, həmçinin ölkə başçısının ekoloji mühitin, xüsusilə yaşıllıqların mühafizəsi ilə bağlı tapşırıq və tövsiyələri ilə əlaqədar aprelin 29-da Baş Prokurorluq, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Hərbi Prokurorluq, Bakı şəhər və paytaxtın tabe rayon prokurorluqlarının əməkdaşları Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaxından dəstəyi ilə növbəti ağacəkmə kampaniyası keçirib. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Prokurorluğu da ağacəkmə aksiyasına qoşulub.

Baş Prokurorluğun Mətbuat xidmətindən bildirilib ki, tədbir çərçivəsində Abşeron rayonu və Naxçıvan şəhəri ərazisində ümumilikdə 1600-dən çox zeytun və şam ağacları əkilib. Abşeron yarımadasının iqliminə uyğun olaraq əkilən ağacların küləkdən qorunması üçün dirəklər basdırılıb və onların inkişafı üçün münbit torpaq və mineral gübrələrdən istifadə olunub. Həmçinin əkilən ağacların mühafizəsi və mütəmadi olaraq onlara qulluq göstərilməsi məqsədilə bütün zəruri tədbirlər görülüb.

Aksiyanın gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.

❖ ❖ ❖



Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi ilə əlaqədar Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) və Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə birgə paytaxtın Nərimanov rayonundakı Məmməd Araz və Aşıq Molla Cümə küçələri boyunca olan ərazidə ağacəkmə aksiyası təşkil edilib.

Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat xidmətindən bildiriblər ki, aksiyada hər iki qurumun rəhbərləri, əməkdaşları və struktur bölmələrin işçiləri iştirak ediblər.

Aksiyanın keçirildiyi ərazi yararsız tullantılardan təmizlənərək orada Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun yeni ağaclar əkilib. BŞİH və komitə tərəfindən gələn həftə də minlərlə yeni ağac əkiləcək.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin doğum günü ərəfəsində keçirilən aksiya bu ərazidə ekoloji tarazlığın bərpası və ərazinin gözəlləşməsi istiqamətində görülən işlərin davamıdır.

Aksiya zamanı əkilən ağaclara gələcəkdə qulluq göstərilməsi üçün suvarılma məsələləri həll edilib, cavabdehlər müəyyənləşdirilib.

Yaz mövsümü ərzində Bakı şəhərinin yaşıllaşdırılması, yaşıllıqlara qulluq və abadlıqla bağlı işlərin davam etdirilməsi nəzərdə tutulub.

*AZƏRTAC*

Azərbaycan.- 2023.- 30 aprel.- S.7